

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 141 (23.052)

*28 iyul 2018-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilib






İyulun 27-də Ordubad rayonunda Rabitə Evi və Yeni Nəsil Telekommunikasiya Sistemi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və "Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen açılışı bildirən lenti kəsmişlər.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov çıxış edərək demişdir ki, bu gün muxtar respublikada tam kəsintisiz telekommunikasiya sistemi mövcuddur. Naxçıvanın beynəlxalq trans avrasiya fiber-optik magistrallarına ikitərəfli çıxış təmin edilib. Azərspace peyki üzərindən isə 3-cü alternativ rabitə kanalları yerləşdirilmişdir. Hazırda muxtar respublikanın əsas və alternativ magistral telekommunikasiya xətlərinin 1600 kilometri fiber-optik xətlərdir. Fiber-optik kabel xətləri üzərində qurulan iritutumlu telekommunikasiya şəbəkələri elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin təşkilinə imkan verir. Muxtar respublikanın hazırda qlobal internet sisteminə dördtərəfli çıxışı vardır. Bütün yaşayış məntəqələri genişzolaqlı sabit və 4-cü nəsil mobil internet xidmətləri ilə təmin edilib. 2010-cu ildən muxtar respublika ərazisində mövcud telefon sisteminin rekonstruksiyasına başlanmışdır. Bu günə qədər layihənin 4 mərhələsi başa çatdırılmışdır. Ordubad rayonu ərazisində mövcud avtomat telefon stansiyalarının rekonstruksiyası da bu sahədə görülən işlərin davamıdır.

"Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz ölkələri üzrə vitse-prezidenti James Chen çıxış edərək demişdir: Naxçıvanda yeni texnologiyaların tətbiqi sahəsində böyük nailiyyətlər qazanılıb. Ordubad rayonunda yeni nəsil telekommunikasiya sistemlərinin açılışı bunu bir daha təsdiq edir. "Huawei" şirkəti Azərbaycanda fəaliyyətinə 16 il bundan əvvəl – 2002-ci ildə Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə əməkdaşlıqla başlamışdır. Muxtar respublikada əhalini yüksəksürətli mobil və stasionar internetlə təmin edən 4G mobil şəbəkəsinin, məhdud fiziki imkanlı uşaqlar üçün distant təhsil sisteminin qurulması, 18 tələbənin Çin Xalq Respublikasında təlim keçməsi, "Qədim və müasir Naxçıvan" kitabının çapı uğurlu əməkdaşlığın nəticəsidir. "Huawei" şirkəti bundan sonra da muxtar respublikada yeni texnologiyaların tətbiqi, elektron təhsil və digər sahələrdə əməkdaşlığı davam etdirmək niyyətindədir. James Chen yeni texnologiyaların tətbiqi və inkişafına göstərdiyi qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Ordubad Rayon Rabitə İdarəsinin əməkdaşı Dilşad Məmmədova demişdir: Mən uzun illərdir ki, rabitə sahəsində çalışıram. Kollektivimiz heç vaxt bugünkü qədər müasir və rahat iş şəraiti ilə təmin olunmayıb. İstər müasir binanın tikilib istifadəyə verilməsi, istərsə də yeni nəsil telekommunikasiya sistemlərinin qurulması muxtar respublikada rabitənin inkişafına göstərilən qayğının ifadəsidir. Artıq Ordubad rayonunun bütün yaşayış məntəqələrində insanlar ən müasir rabitə xidmətindən istifadə edəcəklər. Bu isə o deməkdir ki, rayonumuzda tək bir sahə inkişaf etmir, ümumilikdə, insan amilinə böyük dəyər verilir. Dilşad Məmmədova yaradılan şəraitə görə Ordubad rayon rabitəçiləri və sakinləri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad rayonunda Rabitə Evinin və 11 min 300-dən artıq nömrə tutumu olan 35 yeni nəsil telefon stansiyasının istifadəyə verilməsini əlamətdar hadisə kimi dəyərləndirmiş, bu münasibətlə Ordubad rayonunun əhalisini təbrik edərək demişdir: Ölkəmizdə bütün sahələr inkişaf edir. Bu inkişafın nəticəsidir ki, Azərbaycan dünyanın inkişaf etmiş ölkələri sırasında öz layiqli yerini tutmuşdur. Ordubad rayonunda istifadəyə verilən yeni nəsil telefon stansiyaları dünya səviyyəli şirkət olan "Huawei" şirkətinin ən müasir avadanlıqları hesabına qurulmuşdur. Bu da ölkəmizin inkişafının göstəricisidir. Bu inkişafa isə ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi xəttin ölkə Prezidenti tərəfindən uğurla davam etdirilməsi nəticəsində nail olunmuşdur. Çünki ölkəmizdə iqtisadi inkişaf, sabitlik və dövlətin sosialyönümlü siyasəti olmasaydı, bu işləri həyata keçirmək də mümkün olmazdı.

Ali Məclisin Sədri demişdir: Yeni nəsil telefon stansiyası abunəçilərə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və 23 adda əlavə servis xidmətləri göstərilməsinə imkan verəcəkdir. Qurulan yeni sistem inkişaf etmiş ölkələrdə də tətbiq olunur. Bu isə bir daha təsdiq edir ki, Azərbaycan dünyanın inkişaf edən müasir ölkələri sırasındadır. Bu gün Ordubad rayonunun rabitə sahəsində dönüş günüdür. Ona görə ki, istifadəyə verilən Rabitə Evindən, 35 yeni nəsil telefon stansiyasından və poçt bölmələrindən Ordubad rayonunun əhalisinin hamısı istifadə edəcəkdir. Müasir texnologiyaların və avadanlıqların qurulması imkan verəcəkdir ki, əhali sərbəst vaxtının daha çox hissəsini öz təsərrüfatına, ailə qayğılarına həsr etsin.

Ali Məclisin Sədri demişdir: Ordubad rayonunun rabitəçiləri qurulanları qorumalı, onlardan uzun müddət və səmərəli istifadə etməli, əhaliyə nümunəvi xidmət göstərməlidirlər. Qurulanların nəticələrini hər bir sakin öz gündəlik həyatında hiss edəcəkdir. Yeni sistem insanlara rahatlıq, müasirlik gətirəcəkdir. Yeni nəsil avtomat telefon stansiyalarının qurulmasında yerli mütəxəssislərlə yanaşı, "Huawei" şirkətinin də əməkdaşları iştirak etmişdir. Muxtar respublikamızda müasir rabitə sistemlərinin qurulmasında və yeni texnologiyalara əsaslanan sosialyönümlü layihələrin həyata keçirilməsində "Huawei" şirkəti yaxından iştirak etmişdir. Bundan sonra da "Huawei" şirkəti ilə əməkdaşlıq davam etdiriləcəkdir.

Ali Məclisin Sədri müasir rabitə sistemlərinin qurulmasında göstərdikləri dəstəyə görə "Huawei" şirkətinin kollektivinə muxtar respublika hökuməti və əhalisi adından təşəkkürünü bildirmişdir.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada Ordubad Rayon Rabitə İdarəsi və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin Ordubad rayon filialı üçün lazımi iş şəraiti yaradılıb. Rabitə Evində 16 iş otağı, server, "Naxtel" müştəri xidmətləri bölməsi, xidmət zalı, növbətçi otağı, bağlamalar və qəzet-jurnallar üçün 2 otaq, arxiv, 56 yerlik zal, 1792 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyası, bufet və qazanxana yerləşir. "Naxtel" müştəri xidmətləri bölməsində nömrələrin satışı və qeydiyyatı, eyni zamanda sakinlərin mobil rabitə ilə bağlı müraciətləri qəbul olunur.

Hazırda rayon üzrə 35 avtomat telefon stansiyası vasitəsilə 8 min 261 abonentə rabitə xidməti göstərilir. Rayonda Mərkəzi Poçt və 25 kənd poçt məntəqəsi fəaliyyət göstərir. Bütün poçt məntəqələri kompüterləşdirilib və POS-terminallar quraşdırılıb. Poçt bölmələrində ənənəvi xidmətlərlə yanaşı, kommunal ödənişlərin, üzvlük haqlarının, sığorta haqlarının, dövlət yol polisi cərimələrinin, bələdiyyə rüsumlarının və kredit ödənişlərinin aparılması, pensiya və sosial yardımların paylanması təşkil olunmuşdur. Bundan başqa, poçt məntəqələrində itmiş əşyaların sahibinə çatdırılması, elektron imzanın sertifikat xidməti və "Naxtel" müştəri xidmətləri fəaliyyət göstərir.

Ali Məclisin Sədri Ordubad rayonu ərazisində qurulan Yeni Nəsil Telekommunikasiya Sistemini işə salmışdır.

Sonra "Huawei" şirkətinin baş vitse-prezidenti xanım Ami Linin video-müraciət vasitəsilə təbrikləri təqdim olunmuşdur. Ami Lin video-müraciətdə muxtar respublikada yeni texnologiyaların inkişafı sahəsində görülən işlərin təqdir olunduğunu, "Huawei" şirkətinin muxtar respublika ilə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini bildirmiş, göstərilən dəstəyə görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov Yeni Nəsil Telekommunikasiya Sistemi barədə məlumat vermişdir. Qeyd olunmuşdur ki, bu gün muxtar respublikada istismar olunan 190 avtomat telefon stansiyasından 151-i və ya 80 faizi yeni nəsil texnologiyalara əsaslanır. Abunəçilərin 84 faizi yeni nəsil telefondan istifadə edir. 2017-ci il martın 29-da Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi ilə Çin Xalq Respublikasının "Huawei" şirkəti arasında bağlanmış müqaviləyə əsasən Ordubad rayonundakı mövcud avtomat telefon stansiyalarının rekonstruksiyasına başlanmış, ümumi tutumu 11 min 344 nömrə olan 35 yeni nəsil telefon stansiyası qurulmuş, 10 qovşaq yaradılmışdır. Əsas və alternativ fiber-optik kabel xətləri üzərində tam kəsintisiz telekommunikasiya əlaqələrinin təmin edilməsi üçün Şərur-Naxçıvan və Naxçıvan-Babək-Culfa-Dəstə-Ordubad məntəqələri arasında rəqəmsal transmissiya avadanlıqları qurulmuşdur. Yeni sistem vasitəsilə sakinlərə telefon, videotelefon, İP televiziya, genişzolaqlı internet, qapalı virtual şəbəkələr və 23 adda əlavə servis xidmətləri təklif ediləcəkdir. Həmçinin bu gün Ordubad rayonunda 4-cü nəsil "Naxtel" mobil operatorunun bütün yaşayış məntəqələrini əhatə edən 16 baza stansiyası mövcuddur.

Ali Məclisin Sədri bina ilə tanışlıqdan sonra kollektivlə görüşmüş, yaradılan şəraitdən səmərəli istifadə olunması ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

Rabitə İdarəsinin həyətində də abadlıq işləri görülmüş, generator otağı, anbar və xidməti avtomobillər üçün dayanacaq tikilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında qarşıya qoyulan vəzifələrin müzakirəsi ilə bağlı kollegiya iclası olub.*

Tədbiri giriş sözü ilə vergilər naziri, baş vergi xidməti müşaviri Azər Nağıyev açaraq bildirib ki, muxtar respublikamızda iqtisadiyyatın bütün sahələrində əldə edilən uğurlar vergilər üzrə müəyyənləşdirilmiş proqnozların icrasına şərait yaradıb. Belə ki, iqtisadi inkişafın nəticəsi olaraq, hesabat dövründə Vergilər Nazirliyi üzrə müəyyən olunmuş proqnoz 106,2 faiz icra edilib ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 703 min 900 manat və ya 9,2 faiz çoxdur. Ümumilikdə, muxtar respublika üzrə daxil olmuş vəsaitlərin 39,4 faizi dövlət, 60,6 faizi isə özəl sektorun payına düşüb. Özəl sektor üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 428 min 200 manat və ya 2,2 faiz artıb.

Qeyd olunub ki, cari ilin ötən dövrü ərzində aktiv vergiödəyicilərinin sayı (kənd təsərrüfatı istisna olmaqla) 7802-ə çataraq ötən ilin müvafiq dövrünə nisbətən 1,3 dəfə və ya 1832 vahid artıb.

Diqqətə çatdırılıb ki, nağdsız əməliyyatların genişləndirilməsi tədbirləri çərçivəsində muxtar respublikada aparılmış təbliğat işləri davam etdirilib. Hesabat dövründə POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız hesablaşmaların həcmi 18 milyon 127 min 710 manat olmaqla, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 211 min 854 manat artıq olub.

Bildirilib ki, vergitutma bazasının genişləndirilməsi və vergidənyayınma risklərinin azaldılması sahəsində görülən tədbirlər nəticəsində öz əmlaklarını icarəyə verərək gəlir əldə edən 3618 fiziki şəxs tərəfindən 91 min 645 manat vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib. 2017-ci ilin birinci yarımili ilə müqayisədə icarə haqlarından büdcəyə vergi ödəyənlərin sayı 622 şəxs, vergi məbləği isə 15 min 108 manat artıb.

Nazir onu da qeyd edib ki, repetitorluq fəaliyyəti ilə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi məsələsi nəzarətə götürülərək, bu sahədə məlumatlandırma və maarifləndirmə işləri genişləndirilib. 2017-ci ilin noyabr ayından başlayaraq həmin fəaliyyətlə məşğul olan şəxslərin vergiyə cəlb edilməsi işi daha da gücləndirilib. Nəticədə, muxtar respublika üzrə, ümumilikdə, 212 repetitor vergiödəyicisi kimi qeydiyyata alınıb və büdcəyə 6920 manat vəsait daxil olub.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində keçirilən tədbirdə idarənin sədri Elvin Axundov bildirib ki, 2018-ci ilin ilk 6 ayı ərzində bank qurumları fəaliyyətlərini verilən tapşırıqların icrası istiqamətində qurub. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 iyul 2018-ci il tarixə muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 105 milyon 544 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 2 milyon 601 min manat, uzunmüddətli kredit qoyuluşu isə 102 milyon 943 min manat təşkil edib. Kredit qoyuluşları keçən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 719 min manat artıb.



Vurğulanıb ki, kreditləşmədə əsas məqsəd aqrar sektorun, kiçik və orta sahibkarlığın inkişafı, ixraca yardım və daxili bazarın qorunması olub. Eyni zamanda muxtar respublika əhalisinə verilmiş 17 milyon 807 min manat məbləğində şəxsi istehlak kreditləri, daşınmaz əmlak alınması üçün 14 milyon 9 min manat məbləğində verilmiş ipoteka kreditləri vasitəsilə vətəndaşların həyat şəraitinin yaxşılaşdırılması ilə bərabər real sektor da dəstəklənib.

Diqqətə çatdırılıb ki, bank və kredit təşkilatları tərəfindən 2018-ci ilin ilk 6 ayı ərzində 26 milyon 438 min manat kredit verilib. Bunun da 2 milyon 695 min manatını qısamüddətli, 23 milyon 743 min manatını isə uzunmüddətli kredit təşkil edir. Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib. Bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranmasında əhəmiyyətli rol oynayıb.

Qeyd olunub ki, kredit təşkilatları tərəfindən 2018-ci ilin ilk altı ayı ərzində 58 nəfər fiziki və hüquqi şəxsə 124 ədəd olmaqla, 1 milyon 628 min 200 manat dəyərində lizinqə verilmiş kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilib. Hesabat dövründə, ümumilikdə, verilmiş kreditlərin 3 milyon 50 min manatını kənd təsərrüfatı sahəsinə yönəldilmiş kreditlər təşkil edib.

Elvin Axundov bildirib ki, “2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilib. Əhalinin bu sahəyə marağının artırılması məqsədilə muxtar respublikanın Vergilər Nazirliyi ilə birgə mükafatlandırma tədbirləri keçirilib və 2018-ci ilin ilk 6 ayı ərzində 312 nəfər fiziki şəxsə 20 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr verilib. Ödəniş sistemlərinin inkişaf etdirilməsi və əhalinin elektron ödəniş sistemlərindən daha fəal istifadə etməsi üçün POS-terminalların quraşdırılması diqqət mərkəzində saxlanılıb. POS-terminalların sayı 1 iyul 2018-ci il tarixə 575-i Naxçıvan şəhəri, 694-ü isə rayon və kənd mərkəzlərində olmaqla, 1269-a çatdırılıb. Nəticədə, 2018-ci ilin ilk 6 ayı ərzində POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 18 milyon 128 min manat olub və ya keçən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 212 min manat artıb.

Sonra çıxışlar dinlənilib və bank sektoru qarşısında duran vəzifələr diqqətə çatdırılıb.

Naxçıvan Şəhər İcra Hakimiyyətində bu ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı keçirilən iclası İcra Hakimiyyəti başçısının birinci müavini Sərdar Salahov açaraq məruzə edib. Bildirib ki, cari ilin birinci yarısının ən yaddaqalan hadisəsi ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikaya səfəri çərçivəsində Naxçıvan şəhərində Qaraxanbəyli kənd tam orta məktəbinin, Naxçıvan Müəllimlər İnstitutunun və “N” hərbi hissənin açılış mərasimlərində iştirak etməsi olub.



Qeyd olunub ki, Naxçıvan Şəhər İcra Hakimiyyəti 2018-ci ilin birinci yarısında iqtisadiyyatın, sənayenin, sosial-mədəni və infrastruktur sahələrinin inkişafı, məşğulluğun səviyyəsinin artırılması istiqamətində bir sıra işlər görüb. Şəhərdə abadlıq-bərpa, tikinti-quraşdırma işləri ön plana çəkilərək, əhalinin mənzillərə olan tələbatının ödənilməsi, eləcə də mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yeni yaşayış binalarının tikintisinə, eyni zamanda mövcud binaların yenidən qurulmasına diqqət yetirilib.

Bildirilib ki, hesabat dövründə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 385 milyon 872 min manat vəsait yönəldilib. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin dəyəri 3,3 faiz artaraq 367 milyon 833 min 800 manat təşkil edib. Vətəndaşların öz vəsaiti hesabına 165 min 724 kvadratmetrdə yeni yaşayış sahələri salınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz çoxdur. Sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, yeni iş yerlərinin açılması, əhalinin rifah halının yaxşılaşması demoqrafik vəziyyətə də müsbət təsir göstərib. Naxçıvan şəhərində əhalinin sayı artaraq 93 min 294 nəfər olub.

Bəhs edilən dövrdə 395 milyon 49 min manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur. Bu dövrdə 396 yeni iş yeri açılıb ki, bunun da 388-i daimi iş yeridir. Əvvəlki illərdə olduğu kimi, bu il də strateji əhəmiyyət kəsb edən taxılçılığın inkişafına xüsusi diqqət yetirilib, 2018-ci ilin məhsulu üçün 2095 hektar sahədə əkin işləri aparılıb.

Vurğulanıb ki, bu ilin altı ayında şəhər ərazisində 54 POS-terminal quraşdırılıb. Əhaliyə 64 avtobus, 32 mikroavtobus, 223 ədəd taksi xidmət göstərib. Cari ilin altı ayında Naxçıvan şəhərində nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 2 min 880,1 ton yük, 24 min 427 nəfər sərnişin daşınıb. Yük daşınması 2,5, sərnişin daşınması 2,3 faiz artıb. Hesabat dövründə iş axtaran kimi 315 nəfər qeydə alınıb, 256-sı işlə təmin edilib, onlardan 61-i qadın olub. 18 nəfər ictimai işə cəlb edilib, 5 nəfər kvota (norma) yerlərinə göndərilib, 29 nəfər peşə hazırlığı kursları keçib ki, onlardan da 10-u işlə təmin olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyində keçirilən iclasda çıxış edən baş direktor Hikmət Əsgərov bildirib ki, 2018-ci ilin 6 ayı ərzində sığortanın kütləviliyinin təmin olunması istiqamətində bir sıra tədbirlər həyata keçirilib.***

Qeyd olunub ki, sığorta işinin səmərəliliyinin artırılması məqsədilə cari ilin aprel ayında Dövlət Baş Sığorta Agentliyi Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi ilə birgə sahibkarlara məxsus daşınmaz əmlakın və daşınmaz əmlakın istismarı zamanı yaranan mülki məsuliyyətin icbari sığortası, may ayında Sədərək, iyun ayında Şərur, iyul ayında isə Babək və Ordubad Rayon İcra hakimiyyətləri ilə birlikdə sığorta işinin vəziyyəti barədə müşavirələr keçirib, görülmüş işlər təhlil olunub.

Bildirilib ki, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta olunmayan sürücülərin icbari sığortaya cəlb olunması məqsədilə 2018-ci ilin birinci rübündə Dövlət Sığorta Agentliyi Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə müntəzəm reydlər keçirib. Vətəndaşlara məxsus daşınmaz əmlakın (yaşayış evlərinin, mənzillərin) icbari sığortasının aparılması məqsədilə yerli icra nümayəndələri ilə birlikdə gündəlik təbliğat-izahetmə işləri aparılıb.

Vurğulanıb ki, 2018-ci ilin ötən 6 ayında könüllü sığortaların, o cümlədən fərdi qəza sığortası, ev əmlakının sığortası, nəqliyyat vasitələrinin tam sığortası, əmlakın yanğın və digər risklərdən sığortasının vətəndaşlar arasında daha geniş yayılması üçün hüquqi və fiziki şəxslər arasında təbliğat və izahetmə işləri aparılıb.

Baş direktor qeyd edib ki, 2018-ci ilin ilk 6 ayında agentlik üzrə hüquqi və fiziki şəxslər arasında sığorta fəaliyyətinin genişləndirilməsi, sığorta mədəniyyətinin yüksəldilməsi, onun kütləviliyinin təmin olunması, sığorta adət-ənənələrinin dərinləşdirilməsi üçün işlər aparılıb. Nəticədə, ötən ilin müvafiq dövrü ilə müqayisədə avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə 228, daşınmaz əmlakın icbari sığortası üzrə 108, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası üzrə 19, əmlakın yanğın və digər risklərdən sığortası üzrə 9, ipoteka krediti götürənlərin həyatının fərdi qəza sığortası üzrə 54 müqavilə çox bağlanıb.

Kənd təsərrüfatı sığortası sahəsində də görülmüş işlərdən danışan baş direktor bildirib ki, 2018-ci ilin ötən dövründə muxtar respublikada kənd təsərrüfatı, xüsusilə bitkiçilik sığortası üzrə 701 müqavilə bağlanılıb, bu sahədə izahat-məlumatlandırma işləri genişləndirilib.

Çıxışlardan sonra qarşıya qoyulmuş vəzifələr bir daha diqqətə çatdırılıb, gələcəkdə rayon (şəhər) Dövlət Sığorta agentliklərinə daha səylə çalışmaq tapşırığı verilib.

**Xəbərlər şöbəsi**

## Dövlət qulluqçularının andiçmə mərasimi keçirilib



Dünən Dövlət Bayrağı Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 5 mart 2018-ci il tarixdə elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanaraq ilk dəfə dövlət qulluğuna qəbul olunan 44 dövlət qulluqçusunun təntənəli andiçmə mərasimi keçirilib.

Tədbirdə komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, son illər muxtar respublikada müasir tələblərə cavab verən dövlət qulluğu sistemi formalaşdırılıb, “Elektron hökumət” portalı, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi sistemləri istifadəyə verilib, bəzi dövlət orqanları üzrə səyyar xidmətlər təşkil edilib. Dövlət orqanları üçün ən müasir standartlara cavab verən yeni inzibati binaların tikilməsi və maddi-texniki bazanın gücləndirilməsi, dövlət qulluqçularının fəaliyyətinin yaxşılaşdırılması, onlara lazımi iş şəraitinin yaradılması, işində fərqlənən dövlət qulluqçularının təltif edilməsi dövlət qulluğu sahəsinə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Muxtar respublikada dövlət qulluğunun səmərəli təşkili və idarə olunması məsələlərindən danışan İsmayıl Qəribli qeyd edib ki, komissiya tərəfindən indiyədək keçirilmiş 16 müsabiqədə 4959 namizəd iştirak edib, onlardan 1041-i müsabiqələri müvəffəqiyyətlə başa vuraraq dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinə təyin olunub. Muxtar respublikanın dövlət orqanlarında inzibati vəzifə tutan dövlət qulluqçularının, təqribən, 38,3 faizi komissiyanın keçirdiyi müsabiqələrdə uğur qazanmış, müasir dünyagörüşünə malik, qanunvericilik və informasiya texnologiyaları üzrə bilikləri, habelə məntiqi düşüncə qabiliyyəti olan dövlət qulluqçularıdır.

Sonra müsabiqəni uğurla başa vurmuş və dövlət orqanlarında işə başlamış namizədlər Azərbaycan Respublikasına sadiq olacaqlarına, onun Konstitusiyasına dönmədən əməl edəcəklərinə, dövlət sirrini və xidməti sirri qoruyacaqlarına, dövlət qulluğunun onlara verdiyi hüquqları və üzərlərinə qoyduğu vəzifələri qərəzsiz, vicdanla, yalnız qanunauyğun surətdə və dövlətin mənafeyi naminə həyata keçirəcəklərinə and içiblər.

Sonra mərasim iştirakçıları Dövlət Bayrağı Muzeyi ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

*Muxtar respublikamızın təbiət gözəli olan Şahbuz bütün fəsillərdə füsunkar görünüşü, bənzərsiz havası ilə turistləri cəlb edən bölgədir. Yazı bir başqa mənzərə, qışı möcüzə, yayı çiçək ətirli, payızı bol meyvəli olan rayonun son illər aparılan quruculuq işləri ilə daha da gözəlləşən, müasirləşən hüsnü buranı əsl turizm məkanına çevirib. Rayonda 140-a yaxın tarix-mədəniyyət abidəsinin qeydiyyata alınması, onlardan 6-nın dünya əhəmiyyətli olması turistlərin diqqətini çəkən məqamlardandır. Rayonun coğrafi mövqeyi isə burada ekoturizm, kənd yaşıl, müalicə, qış və digər turizm növlərinin inkişafına böyük imkan yaradır. Bir dəfə Şahbuzda olan qonaq və turistlər bu doyumsuz gözəllikləri görmək, əsrarəngiz məkanın dörd fəslinin bir-biri ilə harmoniya yaradan mənzərələrini seyr etmək üçün yenidən bura qayıdırlar.*



*Turizm*

# Bütün mövsümlər üçün əvəzsiz turizm məkanı




### *Bir təbiət gözəlidir Batabat*

Hüsnünə onlarla şeirlər qoşulan, nəğmələr bəstələnən zirvəsi qarlı, ətəyi yaşıl dağları, şiş qayalıqları, dünyanın min bir rəngindən çalar alan çəmənlikləri, saf sulu bulaqları olan Batabatı Tanrı sanki turizm məkanı üçün yaratmışdır. Yazda baxdıqca gözoxşayan çəmənlərində, yamaclarında bir-birini əvəz edən lalə, nərgiz, bənövşə talalarının özünəməxsus çalarları yaşıl rəngin burada hökm sürən bütün tonlarının fonunda insanı valeh edir. Güllərin, çiçəklərin dəniz səviyyəsindən yüzlərlə metr yüksəklikdə yerləşən yaylağın təmiz havasına qatdığı rayihə isə heç bir gözəl ətirlə müqayisə olunmayacaq dərəcədədir.

Batabat tək təbiət gözəli deyil, həm də tarixi abidələr məkanıdır. Qədim karvan yolu üzərində yerləşən və mehmanxana kimi istifadə olunan Fərhad evi, hər biri bir tarix olan mağaralar və göy cisimlərini müşahidə etmək üçün Batabat Astrofizika Rəsədxanasının da burada yerləşməsi həm xarici, həm də yerli turistlərin maraq dairəsini artırır.

Bir vaxtlar yolların bərbad vəziyyətdə olması üzündən bu gözəl yaylağa gəlmək çətinlik yaratsa da, Batabatın bir dəfə mehmanı olanları yaylaq öz cazibəsi ilə növbəti illərdə də yenidən cəlb edirdi. Muxtar respublikamızda aparılan quruculuq işləri nəticəsində illərdir ki, Batabata gedən aşırımlı yollar da abadlaşıb. Əvvəllər rayon mərkəzindən buraya çala-çuxurlara düşərək 45 dəqiqəyə çatan avtomobillər indi hamar yollarla şütüyərək 15-20 dəqiqədə orada olurlar. Batabat səfərinə səhər tezdən nə qədər tez çıxsan belə, gələnlərin sayının çoxluğundan oraya çatanda avtomobili saxlamağa yer tapmırsan. Çünki bura muxtar respublikada yay turizmi üçün ən gözəl məkandır. Həm də naxçıvanlılar öz istirahətləri ilə yanaşı, əziz qonaqlarını da bu füsunkar təbiətin qoynunda ağırlayıb əzizləyirlər.

Bura tək istirahət məkanı deyil, həm də bu yerin insanlarının ruzi mənbəyidir. Yaz vaxtı yaylaqda göbələk, əvəlik, ələyəz, baldırğan, kəklikotu, solmazçiçək, çobanyastığı, səhləb, böyrəkotu toplayan dəstə-dəstə insanlarla qarşılaşmaq olur. Batabata gələn buradan əliboş qayıtmaz: ya güllərdən hördüyü çələnglə, ya çəmənlərdən dərib dəstə bağladığı çiçəklə, ya da yuxarıda qeyd etdiyimiz dadına doymaq olmayan nemətlərlə geri dönər. İnsanlar bunları da bir istirahət, əyləncə hesab edirlər. Çünki buradakı təmiz hava adamı yormur.

Dillər əzbəri olan Şahbuz balının da keyfiyyətində Batabat yaylağının rolu əvəzsizdir. Şahbuzlu arıçılar mövsümdə arı qutularını yaylağın cənnət sinəsinə yerləşdirərək payızda əl-əl axtarılan balın istehsalını buradakı güllərdən, çiçəklərdən şirəçəkən arılara "tapşırırlar". Bu bal isə, yeyənlər bilir, çiçək ətri, gül dadı verir.





Batabatda istirahət o qədər mənalı keçir ki, Günəşin uca dağların arxasından qüruba enməsinin fərqində olmursan. Hava qaralanda, geri dönmək anı yaxınlaşanda: – kaş bir az da burada qalardım, – deyə düşünürsən. Belə olan halda narahat olmağa dəyməz. Çünki burada fəaliyyət göstərən "Batabat" otel-restoranı Batabata gələn turistləri hərtərəfli şəraiti ilə qarşılaya biləcək, onların rahatlığı üçün bütün imkanları olan məkandır. Burada gecələyib, səhərin sübh çağında Günəşin dan yerini yararaq meşəyə gecədən çökmüş şeh damlalarının üzərinə səpdiyi zərrin şəfəqlərinin insanı valeh edən mənzərəsini seyr etməyə dəyər.

### *"Üzən ada" həm də ruhları oxşayan adadır*

Təbiət növbəti möcüzələrindən birini də göstərib, dünyada bənzəri olmayan "Üzən ada"nı yaradıb. Adanı seyr edənlər üçünsə bu sehrli aləm həm də insan ruhunu dinləndirən bir adadır. Göz işlədikcə uzanan yaşıl çəmənliklərlə əhatə olunmuş və bu yaşıllıqların rəngini sularına hopdurmuş gölün ortasındakı ada təbiətin bambaşqa bir təqdimatıdır: çağlayan bulaqlar həzin, şaqqıltı ilə axan çaylar şaqraq nəğmələri ilə ruhları oxşayırsa, "Üzən ada" sükut melodiyası ilə səs-küylü şəhərlərin ilboyu gərginliklə evdən işə, işdən evə tələsən insanlarına mənəvi rahatlıq bəxş edir.

Ötən il Batabata gəlib "Üzən ada"nın fonunda fotoşəkil çəkdirənlər bu il onu başqa bir səmtdə görəcəklər. Sanki təbiət də külərləri ilə onu suyun üzərində gəzdirməklə insanları adanın dörd bir tərəfindəki gözəllikləri görməyə, fotoşəkillərə həkk etməyə çağırır.

### *Zorbulaq "səsləyir": tamaşama gəl*

Təbiətin heç özünə də agah olmayan möcüzəsi ilə yaranıb Zorbulaq. Görənlər, hüsnünə heyran olanlar, əlini buzlu suyunda saniyələrcə saxlaya bilməyənlər, büllurtək şəffaf suyunun həzin nəğməsini duyanlar bilir nədən danışıram mən. Zorbulaqdan... Gözəlliklər məkanı Batabatın uca zirvələrindən mənbə alıb dağların sinəsini yara-yara axıb gələrək bu bulaqda toxtayan təbiət ərməğanından söhbət açıram. Yəni Batabata gələsən, Zorbulağı görmədən qayıdasan, bu, mümkündürmü? Onda heç elə bil Batabata gəlməmisən, Ulu Yaradanın möcüzə "əsərini oxumamısan". Elə buna görə deyilmi ki, Batabata gələnlərin hər biri gəzintinin sonunda Zorbulağa qalxır, onu bir seyrəngah kimi seyr edir, suyundan içir, bu bulağın axarının Batabat gölünə qovuşan anda dalğalanan ləpələrinin "pıçıltısını" dinləyirlər. Bulaq suyunun göldəki canlılara necə həyat verdiyinə saatlarla tamaşa etmək isə insanın ruhunu oxşayır.

### *Biçənək, Keçili, Kükü, Nursu, Ağbulaq*

Şahbuzun hər qarışı turizm üçün əlverişlidir. Yazda-yayda buradakı evlərin həyətlərində Batabat havası hiss olunur. Elə bu səbəbdən də sakinlərin belə bir deyimi yaranıb: – Həyatim elə bil Batabatdır.

Bütün kəndləri abadlaşdırılan, yol infrastrukturu müasirləşdirilən rayonun Biçənək, Keçili, Kükü, Nursu, Ağbulaq kəndləri isə sözün həqiqi mənasında, cənnətdir desək, yanılmarıq.

Biçənək Batabata çox yaxın ərazidədir. Zirvəsi buludlara söykənən dağların qoynuna sığınan bu kənd əsl turizm məkanıdır. Məşhur Biçənək meşəsindən əsən həzin küləklərin gətirdiyi sərinlik iyul-avqust aylarında cırhacır istidən "yaxa qurtarıb" buraya gələn qonaqlara heyrətamiz bir istirahət bəxş edir. Biçənəyin axşamçağıları adamı əməlli-başlı üşüdür. Kəndin saf və keyfiyyətli heyvandarlıq, tərəvəz məhsullarının dadı isə damaqlardan getməz.

Keçilidə Camal qalasının, Çınqıllı bulağın, Kükürdə Qanlıgölün, Dərəboğazının, Pirdərəsinin gözəlliyi yolçunu yoldan edir. Yaşıllıqlar içərisində olan bu kəndlər havası, suyu ilə istirahət üçün ideal məkanlardandır.

Güneyli-quzeyli, axarlı-baxarlı Nursu kəndi də quruculuqla müasirləşən, qonaqlı-qaralı yurd yerlərindəndir. Həm də sevimli şairimiz Məmməd Arazın ata yurdudur. Burada yaradılan şairin ev-muzeyi turistlərin ilin bütün fəsillərində ən çox üz tutduqları ünvanlardan birinə çevrilib. Bir zamanlar "Bəlkə bu yerlərə bir də gəlmədim, duman salamat qal, çən salamat qal", – deyərək kəndlə vidalaşan şairin ev-muzeyi indi yüzlərlə turisti dumanlı-çənli təbiət gözəli Nursuya gətirir.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq isə gözəl təbiəti, heyrətamiz landşaftı ilə turizm üçün çox əlverişli kənddir. Burada 2013-cü ildən fəaliyyət göstərən istirahət mərkəzi kənddə turizmin inkişafına təkan verib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikanın kənd turizminin tətbiq olunduğu ilk yaşayış məntəqəsi olan Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülür. Bu yaxınlarda Ağbulaq kəndində Xizək Mərkəzinin yaradılması üçün təməlatma tədbirinin keçirilməsi burada yay turizmi ilə yanaşı, qış turizminin də əlverişli olduğunun göstəricisidir.

Kənddə turizmin inkişafı sahəsində digər tədbirlər də həyata keçirilir. Belə ki, bu ildən etibarən kənddəki bütün evlərin dam örtüyü dəyişdirilir, fasadlar yenilənir, yararsız tikililər sökülür, həyətlərdə abadlıq işləri aparılır və çəpərlənir, lazımi kommunal məişət şəraiti yaradılır. Yaşayış məntəqəsindən kənarda isə yeni təsərrüfat binaları tikilir. Həyata keçirilən tədbirlər, zəngin təbii turizm ehtiyatları və müasir sosial infrastruktur Ağbulaqda kənd turizminə üstünlük verənlər üçün ideal şərait yaradır.

Adıçəkilən bu kəndlərin hər birində sakinlər tərəfindən də turistlərə onların tələbatını ödəyəcək səviyyədə evlər təklif olunur.

### *Gəlin, görün...*

**Fəsillərinin hər biri bir başqa olan Şahbuzun təbii gözəllikləri haqqında saatlarla danışmaq olar. Gələnlər görüb, bəyənib, bunun üçün də hər mövsümdə yenidən gəlirlər. Gördüklərini isə yaxınları ilə paylaşırlar. Elə bu yazını da həmin gözəlliklər haqqında eşidən, lakin görməyənlər üçün yazdıq ki, qoy onlar da gəlsinlər, görsünlər. Buradakı bənzərsiz təbiəti və onun qoynundakı istirahəti canlı olaraq görmək, duymaq tam başqadır. Məhz bu anda anlamaq olur təbiətin insanlara lütfünü...**

Mətanət MƏMMƏDOVA







# Məktəblilər yay tətilini səmərəli keçirirlər

***Uşaqların mənəvi tərbiyəsi baxımından tətil, istirahət valideynlər üçün yaxşı fürsətdir. Balacaların hərtərəfli, ahəngdar inkişafı onların daxili hisslərindən, əhval-ruhiyyələrindən çox asılıdır. Uşaq ruhən özünü xoşbəxt hiss edəndə onda həyat eşqi, yaşamaq həvəsi, nikbinlik daha da çoxalır. Tətil günləri mənalı keçirilərsə, növbəti dərs ilində şagirdlərin uğurları, təhsilə maraqları da artmış olacaq. Çünki onlar yaxşı istirahət sayəsində daxili rahatlıq hissi əldə ediblər.***

Naxçıvanda məktəbyaşlı uşaqların yay tətilinin maraqlı, yaddaqalan olması üçün lazımi tədbirlər həyata keçirilir. Onların istirahət günlərində muxtar respublikamızın gəzməli-görməli yerlərinə ekskursiyalar, uşaqların iştirakı ilə müxtəlif əyləncəli yarış və viktorinalar təşkil olunur. Uşaqların dünyagörüşlərinin artırılmasında, intellektual səviyyələrinin genişləndirilməsində məktəbdənkənar müəssisələrin də əvəzsiz rolu vardır. Hazırda muxtar respublikamızda 36 məktəbdənkənar müəssisə fəaliyyət göstərir ki, onlardan da 6-sı paytaxt Naxçıvan şəhərindədir.

Naxçıvan Muxtar Respublikası Turizm Diyarşünaslıq Mərkəzi bu gün məktəblilərin ən çox üz tutduğu ünvanlardandır. 1973-cü ildə Naxçıvan şəhərində Gənc Turistlər Stansiyası adı ilə yaradılan müəssisə 2005-ci ildən Turizm Diyarşünaslıq Mərkəzi adı ilə fəaliyyətini davam etdirir. Mərkəzin direktoru Murad Babayev dedi ki, məktəbdənkənar müəssisə hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. 2013-cü ildə bina yenidən qurularaq kollektivin ixtiyarına verilib. Hazırda burada 2 adda şöbə, 10 dərnək fəaliyyət göstərir. Mərkəzin əsas işi uşaqların asudə vaxtlarını maraqlı, əyləncəli keçirmələrini təmin etmək, gənc nəslə doğma diyarı sevdirmək və vətənpərvərlik hissləri aşılamaq, onları tarixi keçmişimizlə tanış etməkdən ibarətdir.





Öyrəndik ki, mərkəz tərəfindən hər il yay tətili günlərində uşaqların mənalı istirahətini təşkil etmək üçün tədbirlər planı hazırlanır. Bu il də ənənəyə uyğun olaraq iyun ayının 20-dən etibarən plan üzrə məktəblilərin doğma Naxçıvanımızın gəzməli-görməli yerlərinə, tarixi abidələrinə, mədəniyyət, sənaye, istehsal müəssisələrinə ekskursiyaları təşkil edilib. Tətil günlərində məktəblilər mərkəzdə yaradılan mədəni istirahət imkanlarından da geniş şəkildə faydalanıblar. Onlar ilk olaraq burada keçirilən şahmat, tennis və digər stolüstü idman oyunlarına qatılıblar. Həmin tədbirlər uşaqlara xoş əhval-ruhiyyə bəxş edib. Eyni zamanda mərkəzdə yer alan tariximizlə bağlı vəsaitlər, məntiqi düşüncəni artıran kitablar və bədii ədəbiyyatlar məktəblilər tərəfindən qiraət olunub. Bu da onların dünyagörüşünün formalaşmasına, erkən yaşlardan mütaliəyə alışmasına böyük töhfədir. Məktəblilər buradakı elektron lövhədə doğma diyarımızın möhtəşəm tarixini, güclü iqtisadiyyatını, müasir həyatını, təbiətini, qüdrətli ordumuzun nailiyyətlərini əks etdirən sənədli filmlərə tamaşa ediblər. Bu da uşaqlarda Vətənə, torpağa, xalqa məhəbbət hissinin gücləndirilməsinə, onların vətənpərvərlik ruhunda tərbiyə olunmasına əsaslı təsir göstərir. Mərkəzdəki tarix-diyarşünaslıq muzeyində qədim, orta əsr və müasir dövrləri əks etdirən eksponatlara tamaşa edən uşaqlar buradan xoş təəssüratlarla ayrılıblar.

Mərkəz tərəfindən yay tətilinə təsadüf edən əlamətdar günlərlə bağlı tədbirlər keçirilib, əlaqədar mədəniyyət müəssisələrində yer alan eksponatlarla tanışlıq olub. 15 İyun – Milli Qurtuluş Günü və 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ilə bağlı uşaq və yeniyetmələrlə vətənpərvərlik mövzusunda söhbətlər aparılıb və mövzuya həsr edilən sənədli filmlər nümayiş olunub. Bundan başqa, iyun ayının 28-dən başlayaraq 3 gün müddətinə 150-dən artıq məktəbli "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018" ilə əlaqədar İslamın ali dəyərlərinin və zəngin tarixi-mədəni irsimizin dərindən öyrənilməsi məqsədilə İslam mədəniyyətinin nümunələri olan abidələrə ekskursiyalar edib, mərkəzdə milli dəyərlərimizi əks etdirən əl işlərindən ibarət yeni sərgiyə baxıblar.

Tədbirlər planı çərçivəsində iyul ayının 10-da məktəblilər üçün Əcəmi seyrəngahında Naxçıvan Rəssamlar Birliyinin üzvü, Əməkdar rəssam Həmzə Sadiqov tərəfindən ustad dərsi keçilib. O, Açıq Səma Altında Muzeydə olan eksponatların eskizlərini yaradıb, məktəblilərə bu eskizlərin tabloya köçürülməsi qaydaları haqqında məlumat verib. Həmzə Sadiqov şagirdlərə ustad dərsinin incəliklərindən bəhs edib, müxtəlif janrlar, dünya rəssamlıq inciləri haqqında danışıb. O, rəngkarlığın sirləri, əsərin işlənmə texnikası barədə də söhbət açıb. Məktəblilər öyrəniblər ki, əvvəlcə bütöv obyektlərin və fonun rənglənməsi aparılmalı, sonra isə əsərin kiçik elementlərinin işlənilməsi vacibdir.

Xatırladaq ki, yaxın günlərdə məktəblilərin Naxçıvan Biznes Mərkəzi ilə də tanışlıqları olacaq. Tətilin sonunadək bir sıra tədbir və səyahətlərin keçirilməsi nəzərdə tutulub.

Sonda onu da qeyd edək ki, uşaqlara qayğı göstərmək, onlarda sağlam düşüncə formalaşdırıb Vətənə, xalqa və dövlətə layiqli vətəndaş kimi yetişdirmək üçün təkcə aidiyyəti təşkilatlar deyil, valideynlər də yaxından iştirak etməlidirlər. Onlar tətil günlərində övladlarını səmərəli istirahətin ünvanı sayılan məktəbdənkənar müəssisələrə yönəltməklə bu işə böyük töhfə verə bilərlər.

✍ **Nail ƏSGƏROV**

# Kitablar mənəvi dünyamızın zənginləşməsində mühüm rol oynayır



Mütaliə həvəsi insana kiçik yaşlardan aşılanmalı, ona ailə tərəfindən sevdirilməlidir. Sonra bu, məktəbdə davam etdirilməlidir. Müəllimlərimiz sayəsində bu sehrli dünya ilə tanış olmağa başlayırıq. Kitab düzgün dost seçimində, yaxşını, pisi ayırd etməyimizdə, insanlarla asan ünsiyyət qurmağımızda bir növ vasitəçi olur. Kitab oxumaq həmçinin dünyagörüşümüzdə, həyata baxışımızda, düşüncəmizin inkişafında, xəyal gücümüzün genişlənməsində mühüm rol oynayır. Çox vaxt dostlarımızdan, yaxınlarımızdan ala bilməyəcəyimiz məsləhətləri, tövsiyələri məhz bizə kitab verir. Ancaq təəssüflər olsun ki, bəzi insanlar bu həqiqətə bir qədər biganə yanaşırlar. Bu yerdə "Kitabları yandırmaqdan daha böyük cinayətlər var, məsələn onları oxumamaq" (Rey Bredberi) sözləri yada düşür. Həqiqətlərlə dolu bir kələmdır. Çünki kitablardan uzaq qalmaq, onlara biganə olmaq günahdır.

Statistik göstəricilərə görə, dünyada 130 milyon adda kitab mövcuddur. Hər kitabda çox sayda obrazlar var. Onları oxuyan hər bir adam özünə bir ideal tapa bilər. Və həyatda həmin ideal obraza bənzəməklə özünü kamil şəxsiyyət kimi formalaşdıra bilər. Axı insan məlumatlandıqca bilikləri üst-üstə yığılır və elmi dünyagörüşünün çoxalmasına, formalaşmasına gətirib çıxarır.

Sevindirici haldır ki, bu gün muxtar respublikada kitab oxumaq cəmiyyətin, xüsusilə də gənclərin çoxunun həyat tərzinə çevrilib. Belə ki, 2017-ci il avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Oxunması zəruri olan kitablar haqqında" Sərəncam imzalayıb. Sərəncamda oxunması zəruri olan kitabların siyahısı təsdiq edilib. Həmin kitabların təbliği istiqamətində bir sıra işlər görülüb.

Bu gün muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərindən tutmuş ən ucqar dağ və sərhəd kəndlərində, oradakı məktəblərdə zəngin kitab fondu olan kitabxanalar fəaliyyət göstərir. Bütün kitabxanalara çoxsaylı kitablar verilib. Dünya və klassik Azərbaycan ədəbiyyatı nümunələrindən tutmuş çağdaş ədəbiyyatımızadək istədiyimiz kitabı həmin kitabxanalardan alıb mütaliə etmək şəraiti yaradılıb. Belə mədəniyyət müəssisələrinin səmərəli fəaliyyəti təmin olunub. Nə üçün hamılıqla belə fəaliyyətdən yetərincə istifadə etməyək? Axı asudə vaxtımızın səmərəli təşkilində, işdən sonrakı yorğun vaxtlarımızda kitabı ən yaxın dosta çevirmək olar.

Muxtar respublikamızda mütaliəyə marağı gücləndirmək istiqamətində yeni ənənələrin formalaşmasını mütaliəsevərlər onlara göstərilən qayğı kimi dəyərləndirirlər. Kitabxanalarda yeni işıq üzü görmüş kitabların təqdimat mərasimlərinin keçirilməsi, həmin kitablardan ibarət sərgilərin təşkil olunması, kitab müzakirələrinin, yazıçı və şairlərlə görüşlərin keçirilməsi belə tədbirlərdəndir.

O da qeyd olunmalıdır ki, Ali Məclis Sədrinin yuxarıda adını çəkdiyimiz sərəncamı təkcə muxtar respublikada deyil, ölkə səviyyəsində yüksək dəyərləndirilib, bu qiymətli xəzinəyə qayıdış adlandırılıb. Müsbət haldır ki, həmin sərəncamdan sonra bütün kitabxanalarda adıçəkilən kitablardan ibarət guşələr təşkil olunub, kitabların müzakirəsi müntəzəm olaraq davam etdirilir. Bu da, sözsüz ki, yeniyetmə və gənclərdə mütaliəyə maraq yaradır, onlarda mütaliə mədəniyyəti formalaşdırır.

**Telli MUSTAFAYEVA**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual: Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər neçə gün ərzində və hansı qaydada olduğu yer üzrə qeydiyyata alınmalıdırlar?***

***Cavab:*** Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə icti-mai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 15 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini internet informasiya resursu (*www.migrasiya.nakhchivan.az*), elektron poçt (*migrasiya@nakhchivan.az*) vasitəsilə və ya şəxsən Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

***Sual: Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmaqla ölkəyə gəldikləri vaxtdan hansı müddətdə Azərbaycan Respublikasının ərazisində qala bilərlər?***

***Cavab:*** Viza əsasında gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər vizada göstərilən qalma müddətində, viza tələb olunmayan qaydada gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 90 gün müddətində Azərbaycan Respublikası ərazisində qala bilərlər.

***Sual: Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə və olduğu yeri dəyişdikdə nə etməlidirlər?***

***Cavab:*** Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yerdən getdikdə, qəbul edən tərəf və ya şəxs özü bu barədə Dövlət Miqrasiya Xidmətinə məlumat verir və bu məlumat əsasında onlar olduğu yer üzrə qeydiyyatdan çıxarılırlar. Qeydiyyat müddəti başa çatdıqda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər qeydiyyatdan çıxarılmış hesab edilirlər.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduğu yeri dəyişdikdə, o, yenidən olduğu yer üzrə qeydiyyata alınmalıdır. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs qeydiyyata alındığı mənzilin (yaşayış sahəsinin) sahibinə məxsus digər mənzildə (yaşayış sahəsində) müvəqqəti qaldıqda, onun olduğu yer üzrə yenidən qeydiyyata alınması tələb olunmur.

***Sual: Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyatı ilə bağlı hansı məbləğdə dövlət rüsumu tələb olunur?***

***Cavab:*** Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin olduğu yer üzrə qeydiyyata alınması ilə bağlı heç bir dövlət rüsumu tələb olunmur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsi***

# Voleybol üzrə yoldaşlıq görüşü



İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Voleybol Federasiyasının birgə təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Şahbuz və Ordubad rayon komandaları arasında voleybol üzrə yoldaşlıq görüşü keçirilib.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Taleh İbrahimov və Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev çıxış edərək muxtar respublikada idmana və idmançılara göstərilən diqqət və qayğıdan, onlar üçün yaradılan şəraitdən danışıb, iştirakçılara uğurlar arzulayıblar. Daha sonra oyuna start verilib. Oyun 3:2 hesabı ilə Şahbuz rayon komandasının qələbəsi ilə başa çatıb.

Sonra hər iki komandaya voleybol topları hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Kərimova Nailə Elsevər qızının adına Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsini bitirməsi haqqında verilən diplom itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 537